# PEŞƏ TƏMAYÜLLÜ SİNİFLƏRDƏ TƏHSİLALANLARIN İXTİSAS VƏ YUMŞAQ BACARIQLARININ KEYS METODU İLƏ QİYMƏTLƏNDİRİLMƏSİ



**Sona Ağazadə,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin aparıcı mütəxəssisi*
*e-mail: sona.agazade@arti.edu.az*



**Xəyalə Səftərova,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin aparıcı mütəxəssisi*
*e-mail: xayala.saftarova@arti.edu.az*

*https://doi.org/10.30546/2706-7858.2025.3.1032*

**UOT:** 37: 377

**Xülasə.** *Məqalədə peşə təmayüllü siniflərdə təhsil alan şagirdlərin ixtisas və yumşaq bacarıqlarının qiymətləndirilməsində ilk dəfə tətbiq olunan keys əsaslı modelin təhlili təqdim olunur. Qiymətləndirmə iki mərhələdə – nəzəri biliklərin test üsulu və praktiki-yumşaq bacarıqların komanda əsaslı tapşırıqlarla yoxlanılması yolu ilə aparılmışdır. Beynəlxalq təcrübələrdən – Estoniya, Avstraliya və ABŞ nümunələrindən faydalanmaqla şagirdlərin əmək bazarına hazırlığı, real situasiyalarda qərarvermə bacarığı və komanda daxilində funksional rolu dəyərləndirilmişdir. Məqalədə qiymətləndirmənin obyektivliyini təmin etmək məqsədi ilə işəgötürən, məktəb rəhbərliyi və müstəqil ekspertlərin iştirakı ilə çoxşaxəli yanaşmanın tətbiq olunduğu göstərilir, həmçinin qeyd olunur ki, bu model şagirdlərin yalnız bilik və bacarıqlarını deyil, həm də real iş mühitinə uyğun davranış, komandada əməkdaşlıq və situativ qərarvermə kimi əsas kompetensiyalarını da qiymətləndirməyə imkan verir. Məqalədə əsasən bu yanaşmanın genişləndirilməsinin və beynəlxalq təcrübənin sistematik tətbiqinin vacibliyi vurğulanır.*

***Açar sözlər:*** *peşə təmayüllü siniflər, keys metodu, qiymətləndirmə meyarları, praktiki bacarıqlar, yumşaq bacarıqlar, əmək bazarına hazırlıq, komanda işi, autentik qiymətləndirmə, beynəlxalq təcrübə, təhsil islahatları.*
***Key words:*** *vocational-oriented classes, case method, assessment criteria, practical skills, soft skills, labor market readiness, teamwork, authentic assessment, international practices, educational reform.*
***Ключевые слова:*** *профессионально-ориентированные классы, метод кейсов, критерии оценки, практические навыки, гибкие навыки, готовность к рынку труда, командная работа, аутентичная оценка, международный опыт, реформы образования.*

Təhsil cəmiyyətin inkişafında ən vacib elementlərdən biridir və şagirdlərin qiymətləndirilməsi bu prosesin mühüm bir hissəsini təşkil edir. Qiymətləndirmə vasitəsi şagirdlərin zəif tərəflərini təyin edərək təhsilin effektivliyini artırmaq və təkmilləşdirmək üçün əhəmiyyətli bir rol oynayır. Qiymətləndirmə yalnız biliklərin və bacarıqların dərəcəsini ölçmək üçün bir vasitə deyil, həm də şagirdlərin potensialını üzə çıxartmaq, onların təhsil ehtiyaclarını müəyyənləşdirmək və inkişaf yollarını təyin etmək üçün bir alətdir. Xüsusilə nəzəri və praktiki biliklərin qiymətləndirilməsi şagirdlərin ümumi bacarıqlarını daha dolğun şəkildə dəyərləndirməyə imkan yaradır. Bu səbəbdən qiymətləndirmə müasir təhsil sisteminin strateji məqsədlərinə nail olmaqda əsas mexanizmlərdən biri kimi qəbul edilir. Qiymətləndirmə vasitəsilə şagird öyrənməsinin ölçülməsi vacibdir, çünki bu, tədrisi nə dərəcədə uğurla başa çatdırması haqqında məlumat verir.

Müasir təhsil sistemində peşə təhsili alan şagirdlərin ixtisas və yumşaq bacarıqlarının qiymətləndirilməsi dünya miqyasında mühüm əhəmiyyət kəsb edir. Təhsilin inkişafı ilə paralel olaraq əmək bazarının tələbləri də dəyişir və bu, təhsil sistemində yeniliklərin tətbiqini zəruri edir. Tədqiqatlar göstərir ki, şagirdlərin praktiki bacarıqlarının obyektiv qiymətləndirilməsi onların əmək bazarına hazırlığını həyata keçirir. Qlobal miqyasda iş dünyasında uğurlu olmaq üçün yalnız nəzəri biliklər deyil, həm də tətbiqi bacarıqlar, o cümlədən yumşaq bacarıqlar (komanda işi, ünsiyyət bacarığı, liderlik) olduqca vacibdir. Beynəlxalq təcrübəyə görə praktiki və yumşaq bacarıqların qiymətləndirilməsi yalnız biliklərin yox, həm də bacarıqların və kompetensiyaların obyektiv dəyərləndirilməsini təmin edir.

Araşdırmada uğur qazanmış ölkələrin praktiki qiymətləndirilmələri haqqında, eləcə də 2023-2024-cü tədris ilində peşə təmayüllü siniflərdə təhsil alan şagirdlərin ixtisas və yumşaq bacarıqlarının qiymətləndirilməsi haqqında geniş məlumat verilir. Məqsəd bu qiymətləndirmələrin əsas məqamlarını vurğulamaq, onların nəticələri əsasında müəyyən edilən tendensiyaları və problemləri təhlil etmək və gələcəkdə daha effektiv qiymətləndirmə metodologiyalarının tətbiqinə dair tövsiyələr irəli sürmək, eyni zamanda şagirdlərin bilik və bacarıqlarını daha dəqiq şəkildə qiymətləndirmək üçün nəzəri və praktiki yanaşmaların sintezinin necə həyata keçirildiyi haqda məlumatlandırmaqdır.

**Praktiki bacarıqların qiymətləndirilməsi: ən yaxşı təcrübələr**

Beynəlxalq təcrübədə praktiki bacarıqların qiymətləndirilməsi üçün autentik qiymətləndirmə üsulları geniş tətbiq olunur. Məsələn, Estoniyada təhsil sistemi şagirdlərin problem həlletmə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Bu təhsil sistemi şagirdləri yalnız nəzəri biliklərlə deyil, həm də real dünya problemlərini həlletmə bacarığı ilə təchiz etməyə çalışır. OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatı) tərəfindən hazırlanmış PISA-VET proqramı peşə təhsili alan şagirdlərin iş yerində qarşılaşa biləcəkləri real problemləri həlletmə bacarıqlarını ölçməyi hədəfləyir. Bu proqramda şagirdlər müxtəlif sənaye sahələrində təcrübə keçərək praktiki bacarıqlarını nümayiş etdirirlər. Həmçinin bu qiymətləndirmə metodları şagirdin iş dünyasına inteqrasiyasını asanlaşdırır, çünki onlar real dünyada tətbiq oluna biləcək bilik və bacarıqlarla təchiz olurlar.

**Yumşaq bacarıqların qiymətləndirilməsi: qlobal yanaşmalar**

Yumşaq bacarıqlar, yəni ünsiyyət, komanda işi, liderlik və problem həlletmə kimi bacarıqlar müasir iş dünyasında mühüm əhəmiyyət kəsb edir. Avstraliyada Vocedplus platforması bu bacarıqların tədrisi və qiymətləndirilməsi üçün resurslar təqdim edir. Bu platforma, həmçinin müasir iş bazarının ehtiyaclarına uyğun olaraq yumşaq bacarıqların tədrisinin əhəmiyyətini vurğulayır. ABŞ-da National Soft Skills Association yumşaq bacarıqların tədrisi və qiymətləndirilməsi sahəsində araşdırmalar aparır. Bu təşkilat müasir əmək bazarının tələblərinə uyğun olaraq şagirdlərə və gənc işçilərə yumşaq bacarıqları öyrətmək məqsədi ilə müxtəlif kurslar və sertifikatlı proqramlar təşkil edir. Yumşaq bacarıqların qiymətləndirilməsi işçilərin daha effektiv komanda üzvü olmalarına, liderlik qabiliyyətlərini inkişaf etdirmələrinə və problem həlletmə bacarıqlarını artırmalarına imkan verir.

**Azərbaycanda mövcud vəziyyət və tövsiyələr**

Azərbaycanda peşə təmayüllü siniflərdə şa-

girdlərin praktiki və yumşaq bacarıqlarının qiymətləndirilməsi sahəsində müəyyən addımlar atılmışdır. Peşə təmayüllü siniflərdə tətbiq edilən qiymətləndirmə şagirdlərin ixtisas üzrə nəzəri bilik və praktiki bacarıqlarının əmək bazarına uyğunluğunu müəyyən etməklə yanaşı, onların ünsiyyət, komandadaxili əməkdaşlıq, problem həlli, vaxtın idarə olunması və effektiv təqdimat bacarıqlarını da obyektiv şəkildə ölçməyə yönəlmişdir. Bu yanaşma peşə təhsilinin müasir əmək bazarının tələblərinə uyğunlaşdırılması, həmçinin şagirdlərin gələcək peşə fəaliyyətinə hazırlanması üçün güclü bir təməl yaratmağı hədəfləyir. Qiymətləndirmə peşə təmayüllü siniflərdə təhsil alan şagirdlərin ixtisas proqramları üzrə öyrənmə nəticələrini hansı səviyyədə mənimsədiklərini müəyyən etmək, cəmiyyət və əmək bazarına faydalılığını artırmaq, tədris prosesini müasir standartlara uyğun təşkil etmək və qabaqcıl təhsil təcrübələrinin tətbiqini dəstəkləmək məqsədinə xidmət edir.

**Şagirdlərin tədris nəticələrinin qiymətləndirilməsinin əhatəliliyi**

Nümunə kimi göstərdiyimiz qiymətləndirmə ölkə üzrə 100 peşə təmayüllü sinifdə təhsil alan XI sinif şagirdlərinin X sinifdə təhsil aldıqları ixtisas üzrə nəzəri biliklərinin, həmçinin paktiki və yumşaq bacarıqlarının ölçülməsi üçün aşağıdakı dörd əsas profil üzrə (təmir-tikinti, İT, xidmət, kənd təsərrüfatı) ümumilikdə 12 ixtisas olmaqla həyata keçirilmişdir:

**Qiymətləndirmə forması:**

| Təmir-tikinti | İT | Xidmət | Kənd təsərrüfatı |
|---|---|---|---|
| *Dülgər köməkçisi* | *İKT Help Desk* | *Aşpaz köməkçisi* | *Aqronom* |
| *Çilingər köməkçisi* | *İKT qrafik dizayner* | *Dərzi köməkçisi* | |
| *Kombi-kondisioner ustası köməkçisi* | *Kompüter operatoru* | *Qənnadıçı* | |
| *Mebel quraşdırma üzrə usta köməkçisi* | | *Bərbər* | |

Qiymətləndirmə prosesi **iki** əsas mərhələdən ibarət olmuşdur:

*1. Şagirdlərin ixtisas üzrə nəzəri biliklərinin test imtahanı vasitəsilə yoxlanılması.*

*2. Şagirdlərin ixtisas üzrə praktiki və yumşaq bacarıqlarının keys tapşırıqları vasitəsilə meyarlar əsasında qiymətləndirilməsi.*

Şagirdlərin ixtisas və yumşaq bacarıqlarının ölçülməsi məqsədi ilə əvvəlcədən qiymətləndirmə meyarları hazırlanmışdır. Bu meyarlar aşağıdakı əsas istiqamətləri əhatə edir:

– *şagirdlərin peşə fəaliyyətinə hazırlıq səviyyəsinin müəyyən edilməsi;*

– *əmək bazarının aktual tələblərinə uyğunluq dərəcəsinin qiymətləndirilməsi;*

– *real iş mühitində nümayiş etdirdikləri davranış və fəaliyyətlərin obyektiv şəkildə dəyərləndirilməsi.*

Bu meyarlar vasitəsilə şagirdlərin ixtisas üzrə səriştəlilik səviyyəsi və peşəkar inkişaf potensialı sistemli şəkildə təhlil olunmuşdur.

Komandaların qiymətləndirilməsi məktəb direktoru, işəgötürən və qiymətləndirmə eksperti tərəfindən həyata keçirilmişdir. Praktiki imtahanda şagirdlərin fəaliyyəti fərdi olaraq deyil, komanda şəklində qiymətləndirilmişdir. Şagirdlərə təqdim edilmiş keys tapşırığının icrası üçün ümumilikdə 1 saat (keyslə tanışlıq – 10 dəqiqə, işin icrası – 45 dəqiqə, təqdimat – 5 dəqiqə) vaxt ayrılmışdır. Şagirdlər komanda şəklində komanda lideri, vaxta nəzarət, icraçı, köməkçi, təqdimatçı vəzifələr üzrə iş bölgüsü edərək işi icra ediblər.

Komandalar ayrılıqda 4 meyar üzrə *(işin təşkili, komandadaxili əməkdaşlıq, tapşırığın yerinə yetirilməsi, effektiv təqdimat)* ümumilikdə 20 indikator əsasında (zəif – “1 bal”, orta – “3 bal”, yaxşı – “5 bal”) qiymətləndirilmişdir (diaqram 1). Şagirdlərin meyarlar üzrə komanda olaraq maksimum toplaya biləcəkləri 100 bal olmuşdur.







İxtisas və yumşaq bacarıqların ixtisaslar üzrə qiymətləndirilmə nəticələri




**Yanaşmanın üstünlükləri:**

1. ***Real iş şəraitinin simulyasiyası:*** Şagirdlər konkret vəzifələr üzrə bölünərək iş bölgüsü aparmış, bu isə real əmək mühitinə inteqrasiya vərdişlərinin formalaşmasına imkan yaratmışdır.

2. ***Yumşaq bacarıqların ölçülməsi:*** Ənənəvi testlərdən fərqli olaraq bu üsul şagirdlərin liderlik, vaxtın idarə edilməsi, komanda işi və təqdimat bacarıqları kimi yumşaq bacarıqlarını da ölçməyə şərait yaratmışdır.

3. ***Obyektiv qiymətləndirmə:*** Qiymətləndirmənin müxtəlif ekspertlər (müəllim, işəgötürən, ekspert) tərəfindən aparılması nəticələrin subyektivlikdən uzaq olmasını təmin etmişdir.

4. ***Fəal və iştirakçı yanaşma:*** Şagirdlər qiymətləndirmənin mərkəzində olaraq, passiv bilik da-

şıyıcısı yox, aktiv iştirakçı kimi çıxış etmişlər.

5. ***Əmək bazarına inteqrasiya:*** İşəgötürənlərin qiymətləndirmədə iştirakı tədris prosesini bazarın real tələbləri ilə uzlaşdırmağa yardım etmişdir.

Onu da qeyd edək ki, bu sahədə beynəlxalq təcrübələrin tətbiqi və qiymətləndirmə metodlarının təkmilləşdirilməsi üçün hələ də əlavə tədbirlərə ehtiyac vardır. Hazırda Azərbaycanın təhsil sistemində peşə təhsili alan şagirdlər daha çox nəzəri biliklərə yönəldilir, praktiki bacarıqların inkişafına isə az yer verilir. Bununla yanaşı, yumşaq bacarıqların qiymətləndirilməsi və tədrisi sahəsində əhəmiyyətli boşluqlar mövcuddur. Bu sahədəki boşluqları aradan qaldırmaq üçün daha çox peşəkar inkişaf proqramları təşkil edilməli, müəllimlərin və təlimatçıların ixtisasartırma kurslarına göndərilməsi təşviq olunmalıdır.

**Tövsiyələr**

Keys metodu əsasında aparılan qiymətləndirmə modeli göstərdi ki, şagirdlərin peşə bacarıqlarını ölçmək üçün təkcə nəzəri biliklər deyil, praktik fəaliyyət və əməkdaşlıq mühiti də nəzərə alınmalıdır. Bu model digər peşə təmayüllü siniflər üçün də nümunə ola bilər və geniş tətbiq oluna bilər.

*1. **Autentik qiymətləndirmə metodlarının tətbiqi:** Beynəlxalq təcrübəyə əsaslanaraq şagirdlərin praktiki bacarıqlarını real şəraitdə qiymətləndirmək üçün autentik qiymətləndirmə üsullarının tətbiqi vacibdir. Məsələn, şagirdlərə real iş şəraitində qarşılaşa biləcəkləri situasiyalar təqdim edilərək, onların bu situasiyalarda necə qərar verdikləri qiymətləndirilə bilər.*

*2. **Yumşaq bacarıqların tədrisi və qiymətləndirilməsi üçün xüsusi proqramların hazırlanması:** Yumşaq bacarıqların inkişaf etdirilməsi üçün təhsil proqramları hazırlanmalı və bu bacarıqların qiymətləndirilməsi metodları müvafiq şəkildə təkmilləşdirilməlidir. Bu bacarıqların qiymətləndirilməsi yalnız nəzəri deyil, həm də praktiki təcrübə ilə bağlı olmalıdır.*

*3. **Beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi:** Beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılmasına kömək edəcəkdir. Estoniya və Avstraliya kimi ölkələrin təcrübələrindən faydalanaraq şagirdlərin praktiki bacarıqlarını inkişaf etdirmək məqsədi ilə yeni metodlar tətbiq edilə bilər.*

*4. **Müəllimlərin peşəkar inkişafı:** Müəllimlərin və təlimatçıların peşəkar inkişafını dəstəkləmək məqsədi ilə ixtisasartırma kursları təşkil edilməli, yeni qiymətləndirmə metodları barədə təlimlər keçirilərək, onların müasir təhsil üsullarına uyğunlaşdırılmasına kömək edilməlidir.*

**Nəticə.** Peşə təmayüllü siniflərdə ilk dəfə tətbiq edilən meyarlar üzrə qiymətləndirmə modeli metodologiya baxımından təhsil sistemində mühüm bir dönüş nöqtəsidir. Bu yanaşma yalnız şagirdlərin hazırkı bacarıqlarını ölçmək deyil, həm də təhsil sistemində təlim və qiymətləndirmə əlaqəsinin gücləndirilməsi üçün strateji imkanlar təqdim edir. Nəticələr göstərir ki, komandaəsaslı praktiki qiymətləndirmə modeli gələcəkdə daha geniş tətbiq edilməlidir. Peşə təmayüllü siniflərdə şagirdlərin praktiki və yumşaq bacarıqlarının effektiv şəkildə qiymətləndirilməsi onların əmək bazarına daha yaxşı hazırlanmasını təmin edir. Beynəlxalq təcrübələr göstərir ki, autentik qiymətləndirmə metodları və yumşaq bacarıqların inkişafı bu sahədə mühüm rol oynayır. Şagirdlərin yalnız nəzəri biliklərlə deyil, həm də praktiki və sosial bacarıqlarla təchiz olunması onların iş dünyasında uğurlu olmalarını təmin edəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat

1. OECD (2023). International Vocational Education and Training Assessment (PISA-VET). Retrieved from:
https://www.oecd.org/en/about/projects/international-vocational-education-and-training-assessment-pisa-vet.html

2. The Times (2024). Estonia's Curriculum: One of the Best in the World. Retrieved from:
https://www.thetimes.co.uk

3. Vocedplus (2024). Soft Skills in Education. Retrieved from: https://www.voced.edu.au

4. National Soft Skills Association (2024). Developing Soft Skills. Retrieved from:

https://www.nationalsoftskills.org

5. World Bank (2020). Skills for Future Jobs: Vocational Education and Soft Skills Development in Emerging Economies. Washington, DC.

6. UNESCO-UNEVOC (2022). Innovative approaches to TVET assessment: Case studies from around the world. Bonn, Germany.

7. CEDEFOP (2023). Key competences in initial vocational education and training: Learning outcomes from across Europe. Luxembourg: Publications Office of the European Union.

**S.Agazade, Kh.Saftarova**

## Assessment of professional and soft skills of students in vocationally oriented classes using the case study methods

**Abstract**

This article explores the implementation of a case-based assessment model for measuring vocational and soft skills among students in vocational-oriented classes in Azerbaijan. The evaluation consisted of two phases: theoretical knowledge measured through standardized testing and practical/soft skills assessed via structured team-based tasks. Drawing upon international best practices from Estonia, Australia, and the United States, the model focuses on workplace readiness, real-world problem-solving, and teamwork efficiency. It also integrates a multi-actor evaluation structure involving employers, school administrators, and independent experts to ensure objectivity and contextual validity. The findings underscore that this model allows for a more holistic evaluation of students – not only in terms of knowledge but also in skill application and behavioral competencies. The article recommends broader application of this model, and the integration of global practices into national vocational education systems.

**С.Агазаде, Х.Сафтарова**

## Оценка профессиональных и социальных навыков учащихся в профессионально-ориентированных классах с использованием кейс-метода

**Аннотация**

В статье анализируется внедрение модели оценки на основе кейс-метода для измерения профессиональных и мягких навыков учащихся в профессионально-ориентированных классах. Оценка проводилась в два этапа: сначала – тестирование теоретических знаний, затем – командное выполнение практического задания с последующей презентацией. В качестве примеров международного опыта рассмотрены успешные практики Эстонии, Австралии и США. Встаты показано, что модель включает мультистейкхолдерную систему оценки с участием работодателей, директоров школ и независимых экспертов, что позволяет достичь высокой степени объективности, А также подчеркивается важность комплексного подхода к оценке – не только знаний, но и прикладных навыков и поведения учащихся в условиях, приближенных к реальной рабочей среде. В заключение предлагаются рекомендации по масштабированию модели, системной интеграции международного опыта.